BAYRAMOV VƏLİ ORUC OĞLU
AUDİTORLAR PALATASI 2010

# AUDİTOR RƏYİ
# AUDITOR OPINION

SERİYA BV № - SA/065

**“Bakı Fəhləsi Maşınqayırma zavodu” MMCəmiyyətin Rəhbərliyinə :**

**Maliyyə hesabatları haqqında**

**Rəy.** Mən, “Bakı Fəhləsi Maşınqayırma zavodu” Məhdud Məsuliyyətli Cəmiyyətin 31 dekabr 2020-ci il tarixinə maliyyə vəziyyəti haqqında hesabatdan, məcmu gəlirlər haqqında hesabatdan, kapitalda dəyişiklikləri haqqında hesabatdan və göstərilən tarixdə başa çatan il üzrə pul vəsaitlərinin hərəkəti haqqında hesabatdan, habelə uçotu siyasətinin əhəmiyyətli prinsiplərinin qısa təsviri də daxil olmaqla, maliyyə hesabatlarına edilən qeydlərdən ibarət maliyyə hesabatlarının auditini apardım.

Hesab edirəm ki, əlavə edilmiş maliyyə hesabatları “Bakı Fəhləsi Maşınqayırma zavodu” Məhdud Məsuliyyətli Cəmiyyətin 31 dekabr 2020-ci il tarixinə maliyyə vəziyyətini, habelə maliyyə nəticələrini və göstərilən tarixdə başa çatan il üzrə pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq bütün əhəmiyyətdi aspektlərdə ədalətli əks etdirir.

**Rəy üçün əsaslar. 2.** Mən, auditi Beynəlxalq Audit Standartlarına (BAS) uyğun aparmışam. Bu standartlar üzrə mənim məsuliyyətim əlavə olaraq hesabatımın “Maliyyə hesabatlarının auditi üçün auditorun məsuliyyəti” bölməsində təsvir edilir. Mən Azərbaycan Respublikası maliyyə hesabatlarının auditinə aid olan etik normaların tələblərinə uyğun olaraq Cəmiyyətdən asılı deyiləm və mən digər etik öhdəliklərimi bu tələblərə uyğun yerinə yetirmişəm. Mən hesab edirəm ki, əldə etdiyim audit sübutları rəyimlə əsaslandırmaq üçün yetərli və münasibdir.

**Əsas audit məsələləri.** 3. Əsas audit məsələləri mən peşəkar mühakiməmə görə cari dövrün maliyyə hesabatlarının auditində ən əhəmiyyətli məsələlərdir. Bu məsələlər maliyyə hesabatlarının auditi baxımından və maliyyə hesabatlarına dair rəyimin formalaşdırılmasında bütövlükdə nəzərə alınmışdır və mən bu məsələlərə dair ayrılıqda rəy vermirəm.

**Maliyyə hesabatlarına görə rəhbərliyin və iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərin məsuliyyəti.** 4. Rəhbərlik maliyyə hesabatlarının İFRS (Beynəlxalq maliyyə hesabatları standartlarına) uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə və rəhbərliyin fikrimcə, dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhrif olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırladıqda rəhbərlik Cəmiyyətin ləğv və ya işini dayandırmaq niyyətində olmadığı, yaxud bunu etməkdən başqa münasib alternativ olmadığı halda, rəhbərlik Cəmiyyətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqinda məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsiplərinin istifadə edilməsinə görə məsuliyyət daşıyır. İqtisadi suyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslər Cəmiyyətin maliyyə hesabatlarını verilmə prosesinə nəzarət görə məsuliyyət daşıyır.

**Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti** 5. Mənim məqsədim təqdim etdiyim maliyyə hesabatlarında bir tam kimi, dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhriflərin olnb-olmadığına dair kafi əminlik əldə etmək və rəyimə daxil olan auditor hesabatını təqdim etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin o zamanət vermir ki, əhəmiyyətli təhrif movcud olduqda, BAS-lara uyğun olaraq aparılmış audit onu həmşə aşkarlayır. Təhriflər dələduzluq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq, istifadəçilərin belə təqdim edilmiş maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə etimalı olduğu halda, əhəmiyyətli hesab edilir. Azərbaycan Respublikası Auditorlar Palatasının 26 dekabr 2016-ci il tarixli SA /065 saylı İcazə qeydiyyatı ilə fəaliyyət göstərən sərbəst auditor Vəli Oruc oğlu Bayramov Müstəqil auditor rəyini 15 mart 2021-ci il tarixində tərtib etmişdir.

**Sərbəst auditor** **Vəli Oruc oğlu Bayramov**

Sərbəst Auditor / Independent Auditor

## 31.12.2020-ci il tarixə *Maliyyə vəziyyəti haqqında Müəssisə Balansı*

| AKTİVLƏR | Qeyd | 2020 | 2019 |
|---|---|---|---|
| *Uzunmüddətli aktivlər* | | | |
| Qeyri-maddi aktivlər | | | |
| Torpaq, tikili və avadanlıqlar | | 9008739-0 | 734085-0 |
| Bioloji aktivlər | | - | - |
| İştirak payı metodu alınmış investisiyalar | | | |
| Təxirə salınmış vergi aktivləri | | - | - |
| Digər uzunmüddətli investisiyalar | | | |
| *Cəmi uzunmüddətli aktivlər* | | **9008739-0** | **734085-0** |
| *Qısamüddətli aktivlər* | | | |
| Ehtiyatlar | | 1143584-0 | 1106328-0 |
| Qısamüddətli debitor borcları | | 541889-0 | 278025-0 |
| Pul vəsaitləri və onların ekvivalentləri | | 7744-90 | 59904-0 |
| Sair qısamüddətli maliyyə aktivləri | | 8026753-80 | 6219116-0 |
| Sair qısamüddətli aktivlər | | 6084700-30 | |
| *Cəmi qısamüddətli aktivlər* | | **15804672-0** | **7663373-0** |
| **CƏMİ AKTİVLƏR** | | ***24813411-00*** | ***8397458-00*** |
| **CƏMİ KAPİTAL və ÖHDƏLİKLƏR** | | ***24813411-00*** | ***8397458-00*** |
| Nizamnamə kapitalı | | 22300000-00 | 5581902-00 |
| Kapital ehtiyatları | | | |
| Bölüşdürülməmiş mənfəət | | | |
| *Cəmi kapital* | | **22300000-00** | **5581902-00** |
| **ÖHDƏLİKLƏR** | | | |
| *Sair uzunmüddətli öhdəliklər* | | 2409901-80 | 2395106-0 |
| Uzunmüddətli faiz üzrə yaranmış öhdəliklər | | 42000-00 | 42000-0 |
| Təxirə salınmış vergi öhdəliyi | | | |
| Uzunmüddətli kreditor borcları | | 10839-20 | 0 |
| *Cəmi uzunmüddətli öhdəliklər* | | **2462741-00** | **2437106-0** |
| Qısamüddətli öhdəliklər | | | |
| Qısamüddətli faiz xərcləri yar öhdəliklər | | - | |
| Vergi və sosial sığorta üzrə öhdəliklər | | | 106518-0 |
| Qısamüddətli kreditor borcları | | | 221262-0 |
| Sair qısamüddətli öhdəliklər | | 50670-00 | 50670-0 |
| *Cəmi qısamüddətli öhdəliklər* | | **50670-00** | ***378450-0*** |

**Maliyyə hesabatları 01 mart 2021-ci il tarixə "Bakı Fəhləsi Maşınqayırma zavodu" Məhdud Məsuliyyətli Cəmiyyətin rəhbərliyi tərəfindən təsdiqlənmiş və imzalanmışdır:**

**Cəmiyyətin direktoru T. G. Əliyev**

# 31.12.2020-cu il tarixə Mənfəət və zərər haqqında hesabat

| | 2020 | 2019 |
|---|---|---|
| ***Satış*** gəlirləri | 2343865-22 | 1718829-2 |
| Satışın maya dəyəri | -2202735-16 | -1547949-3 |
| ***Ümumi mənfəət*** | 141130.06 | 170879-8 |
| İstifadə edilmiş material ehtiytları | -848108-35 | -579035-2 |
| İşçi heyyəti üzrə əmək haqqı xərcləri | -390702-03 | - 444036-9 |
| DSMF | -78117.54 | -100092-0 |
| Amartizasiya xərclər | -491332.57 | -61109-4 |
| Cəmi- - Sair xərcləri | -316451-84 | -326722-7 |
| Gəlirlərdən çıxılan cəmi vergilər | -78022.83 | -36953-0 |
| Hesabat dövrünə xalis mənfəət (zərər) | 141130.06 | 170879-8 |
| Maliyyə gəlirləri | 2343865-22 | 1718829-,0 |
| Maliyyə xərcləri | -2202735-16 | -1510996-0 |
| ***Maliyyə mənfəəti (zərəri)*** | 141130.06 | 170879-8 |
| ***Vergiqoymadan əvvəlki mənfəət*** | 141130.06 | 170879-8 |
| Mənfəət vergisi | 28226.01 | 34176- |
| ***Xalis mənfəət (zərər)*** | 112904.05 | 136703.8 |

**Maliyyə hesabatları 01 mart 2021-ci il tarixə "Bakı Fəhləsi Maşınqayırma zavodu" Məhdud Məsuliyyətli Cəmiyyətin rəhbərliyi tərəfindən təsdiqlənmiş və imzalanmışdır:**

**Cəmiyyətin direktoru** **T. G. Əliyev**

## 31.12.2020-ci il tarixinə Pul vəsaitlərinin hərəkəti haqqında hesabat

| | Qeyd | 2020 | 2019 |
|---|---|---|---|
| *Əməliyyat fəaliyyətindən pul vəsaitlərinin hərəkəti* | | | |
| Hesabat dövrü üzrə xalis mənfəət | | 112904,89 | 136703.88 |
| *Düzəlişlər:* | | | |
| Hesablanmış mənfəət vergisi | | 28226,01 | 34176.00 |
| Gəlir və xərclərin qeyri-pul maddələri, o cümlədən: | | | |
| Torpaq, tikili və avadanlıqlar üzrə amortizasiya xərcləri | | 491332,57 | 61109,43 |
| Qeyri-maddi aktivlər üzrə amortizasiya xərcləri | | | |
| Şübhəli borclar üzrə yaradılmış ehtiyatlar | | | |
| Əsas vəsaitlərin xaric olmasından zərər | | | |
| Maliyyə və investisiya fəaliyyətinə aid olan maddələr | | | |
| Material ehtiyatlarının artması (azalması) | | 1143583-75 | 1106327,60 |
| Sair qısamüddətli maliyyə aktivlərdə artma (azalma) | | | |
| Vergi və sair məcburi öhdəliklərdə artma | | | |
| Sair qısamüddətli öhdəliklərdə artım(azalma) | | | |
| Debitor borclarının artması (azalması) | | 541889,05 | 274959,79 |
| Əsas vəsaitlərinin satışından gəlirlərin artması | | | |
| Sair uzunmüddətli aktivlər | | | |
| Ödənilmiş mənfəət vergisi | | | |
| ***Əməliyyat fəaliyyətindən pul vəsaitlərinin xalis hərəkəti*** | | ***-175914,81*** | ***-48133.40*** |
| *İnvestisiya fəaliyyətindən pul vəsaitlərinin hərəkəti* | | | |
| Torpaq, tikili və avadanlıqların əldə edilməsi | | | |
| Qeyri-maddi aktivlərin əldə edilməsi | | | |
| ***İnvestisiya fəaliyyətindən pul vəsaitlərinin xalis hərəkəti*** | | | |
| **Maliyyə fəaliyyətindən pul vəsaitlərinin hərəkəti** | | | |
| Nizamnamə kapitalında artma | | +16718098 | - |
| Kreditin əsas məbləğinin ödənilməsi | | | |
| Məqsədli maliyyələşmələrin daxil olması | | | |
| Məqsədli maliyyələşmənin qaytarılması (istifadəsi) | | | |
| ***Maliyyə fəaliyyətindən pul vəsaitlərinin xalis hərəkəti*** | | +16718098-*00* | - |
| **Pul vəsaitləri və onların ekvivalentlərinin xalis hərəkəti** | | **7744-90** | 59980-32 |
| *Pul vəsaitləri və onların ekvivalentlərinin ilin əvvəlinə qalığı* | | ***297-86*** | **7744-90** |
| ***İl ərzində pul vəsaitlərinin (artması) (azalması)*** | | *+7447-04* | *+52235.42* |
| *Xarici valyuta məzənnələrində dəyişikliklərin təsri* | | | |
| *Pul vəsaitləri və onların ekvivalentlərinin ilin sonuna qalığı* | | 7744-90 | *59980-32* |

**Maliyyə hesabatları 01 mart 2021-ci il tarixə "Bakı Fəhləsi Maşınqayırma zavodu" Məhdud Məsuliyyətli Cəmiyyətin rəhbərliyi tərəfindən təsdiqlənmiş və imzalanmışdır:**

**Cəmiyyətin direktoru** **T. G. Əliyev**

## *31.12.2019-cu il tarixinə kapitalda dəyişikliklər haqqında hesabat*

| | Qeyd | Nizamnamə kapitalı | Kapital ehtiyatlar | Böl-məmiş mənfəət (öd-məmiş zərər) | Cəmi kapital |
|---|---|---|---|---|---|
| *01.01. 2019-cu il tarixinə balans* | | 5581902 | | | 5581902 |
| Uçot siyasətində dəyişikərlə bağlı düzəlişlər | | | | - | - |
| *Düzəlişlərdən sonra 01.01.2019-cu il tarixinə balans* | | 5581902 | | | 5581902 |
| Nizamnamə kapitalında artma / həmçinin | | | | | |
| Kapital ehtiyatlarının azalması | | | | | |
| Bölüşdürülməmiş mənfəət, o cümlədən hesabat ilində | | | | | |
| Büdcədən məqsədli maliyyələşmələr və daxilolmalar | | | | | |
| *31.12. 2019-cu il tarixinə* Kapitalın *istifadəsindən əvvəl balans* | | 5581902 | | | 5581902 |
| Kapitalın maddələri arasında köçürmələr | | | | | |
| Kapitalın (mənfəətin) istifadəsi | | | | | |
| *31.12. 2019-cu il tarixinə balans* | | 5581902 | | | 5581902 |
| *2019-cu il üçün kapitalda dəyişikliklər* | | | | | |

### *31.12. 2020-ci il tarixinə kapitalda dəyişikliklər haqqında hesabat*

| | Qeyd | Nizannamə kapitalı | Kapital ehtiyatları | Böl-məmiş mənfəət (öd-məmiş zərər) | Cəmi kapital |
|---|---|---|---|---|---|
| *01.01. 2020-ci il tarixinə balans* | | 5581902 | | | 5581902 |
| Uçot siyasətində dəyişiklər | | | | | |
| *Düzəlişlərdən sonra 01.01.2020-ci il tarixinə balans* | | 5581902 | | | 5581902 |
| Nizamnamə kapitalında artma / həmçinin | | 16718098 | | | 16718098 |
| İl ərzində xalis mənfəət | | | | | |
| *31.12. 2020-ci il tarixinə* Kapitalın *istifadəsindən əvvəl balans* | | 5581902 | | | 5581902 |
| Kapitalın istifadəsi | | 16718098 | | | 16718098 |
| *31.12. 2020-ci il tarixinə balans* | | 22 300000 | | | 22 300000 |
| *2020-ci il üçün kapitalda dəyişikliklər* | | 16718098 | | | 16718098 |

**Maliyyə hesabatları 01 mart 2021-ci il tarixə "Bakı Fəhləsi Maşınqayırma zavodu" Məhdud Məsuliyyətli Cəmiyyətin rəhbərliyi tərəfindən təsdiqlənmiş və imzalanmışdır:**

**Cəmiyyətin direktoru** **T. G. Əliyev**

# 31 Dekabr 2020-ci il tarixə
# MÜSTƏQİL AUDİTOR RƏYİ
# VƏ MALİYYƏ HESABATLAR
## "Bakı Fəhləsi Maşınqayırma zavodu" MMC-nin
## Mündəricat maliyyə hesabatları

Müstəqil auditor rəyi ........................................................................ 1
Maliyyə vəziyyəti haqqında hesabat Balans hesabatı......... 2
Mənfəət və zərər haqqında hesabat ........................................ 3
Kapitalda dəyişikliklər haqqında hesabat . .............................. 4
Pul vəsaitlərinin hərəkəti haqqında hesabat ........................ 5
Əhəmiyyətli uçot siyasətləri və izahedici qeydlər
1. Təşkilat haqqında məlumat
2. Cəmiyyətin əməliyyat mühiti .
3. Əhəmiyyətli uçot siyasətlərində dəyişikliklər
4. Maliyyə risklərinin idarə edilməsi
5. Uçot siaysətinin tətbiqi zamanı əhəmiyyətli mühasibat təxminləri və fərziyyələri.
6. Əsas əməliyyat gəliri
7. Satışın maya dəyəri
8. Yeni və yenidən işlənmiş standartların və onlara şərhlərin tətbiqi.
9. Torpaq, tikili və avadanlıqlar: (Balans dəyərlə)
10. Qeyri-maddi aktivlər
11. Ehtiyatlar
12. Qısamüddətli debitor borcları, Sair qısamüddətli aktivlər
13. Pul vəsaitləri və onların ekvivalentləri
14. Ödənilmiş nominal (nizamnamə) kapitalı və Kapital ehtiyatları.
15. Vergi və sosial sığorta öhdəlikləri
16. Qısamüddətli kreditor borcları
17. Mənfəət vergisi
18. Səhm (pay) üzrə mənfəət
19. Əlaqəli tərəflərlə əməliyyatlar
20. Risklərin idarə edilməsi.
21. Hesabat tarixindən sonra baş vermiş hadisələr

*"Bakı Fəhləsi Maşınqayırma Zavodu" Məhdud Məsuliyyətli Cəmiyyətin* ***31 dekabr 2020-ci il tarixinə Maliyyə Hesabatları üzrə Şərhlər və Qeydlər.***

**1. Təşkilat haqqında məlumat**

Cəmiyyətin Nizamnaməsi 2001-ci il 24 dekabr tarixdə D-3365 saylı Şəhadətnamə ilə Açıq Səhmdar Cəmiyyəti vergi ödəyicisi kimi 9900028261 saylı VÖEN ilə dövlət qeydiyyatına alınmışdır. 13 fevral 2014-cü il tarixdə müəssisə Azərbaycan Respublikası Vergilər Nazirliyi tərəfindən "Bakı Fəhləsi Maşınqayırma Zavodu" Açıq Səhmdar Cəmiyyəti kimi dövlət qeydiyyatına götürülmüş həmin Cəmiyyətin hüquqi varisliyi 22 dekabr 2020-ci il tarixli Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Milli Gəlirlər Baş İdarəsinin Hüquqi şəxslərin dövlət qeydiyyatı idarəsinin 2001020069712500 nömrəli Dövlət reyestrindən Çıxarışında da göründüyü kimi "Bakı Fəhləsi Maşınqayırma Zavodu" Məhdud Məsuliyyətli Cəmiyyəti "Bakı Fəhləsi Maşınqayırma Zavodu" Açıq Səhmdar Cəmiyyətinin hüquqi varisi kimi tanınmışdır. 22 dekabr 2020-ci il tarixli qeydiyyara alınmış Nizamnaməsində Nizamnamə kapitalı 22 300000 manat miqdarında elan edilmiş, Cəmiyyətin Nizamnamə kapitalı 100 % yeganə təsisçi "RUSEL" ŞİRKƏTİNƏ aid olduğu qeyd olmuşdur.

***1.2. Cəmiyyətin hüquqi ünvanı :*** Bakı şəhəri Sabunçu rayonu Bakıxanov ŞTQ E.Mediyev küçəsi 402-də qeydiyyata alınmışdır.

*1.3. Əməliyyat valyutası*

Hazırkı maliyyə hesabatlarındakı məbləğlər Azərbaycan manatı (AZN) ilə ifadə olunmuşdur.

**2. Cəmiyyətin əməliyyat mühiti .**

Azərbaycan Respublikası inkişaf etməkdə olan bazar iqtisadiyyatına xas olan xüsusiyyətlərə malikdir. Son illər ölkədə güclü iqtisadi artım müşahidə olunmuşdur. Lakin hal-hazırda dünya iqtisadiyyatında mövcud olan qlobal maliyyə böhranı Azərbaycana da öz təsirini göstərməkdədir. Kommersiya sektoruna təsir göstərə biləcək bütün tendensiyaları, eləcə də onların Cəmiyyətin maliyyə vəziyyətinə təsirini (əgər varsa) qabaqcadan proqnozlaşdırmaq mümkün deyil.

***"Bakı Fəhləsi Maşınqayırma zavodu" Məhdud Məsuliyyətli Cəmiyyətin 31 dekabr 2020-ci il tarixinə Maliyyə Hesabatları üzrə Şərhlər və Qeydləri***

ehtiyatlar üzrə qalığı 1106327 manat 60 qəpik, o, cümlədən hazır məhsul 844624 manat, alınmış quymətlformada maliyyə hesabatları "Mühasibat Uçotu haqqında" Azərbaycan Respublikası Qanununun 10.1.2-ci maddəsinə əsaslanaraq Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq tərtib edilmişdir.

01 yanvar 2020-ci il tarixə mühasibat balansına görə Cəmiyyətin aktivlərinin qalığı cəmi 8397456 manat 60 qəpik təşkil etmiş o, cümlədən əsas vəsaitlər qalıq dəyərlə 736583 manat 76 qəpik, ehtiyatlar üzrə qalığı 1106327 manat 60 qəpik, o, cümlədən hazır məhsul 844624 manat 26 qəpik, sair ehtiyatlar üzrə qalığı 261703 manat 34 qəpik, mallara, iş və xidmətlərə görə debitor borclar üzrə qalıq 274959 manat 79 qəpik, o, cümlədən dövlət büdcəsinə vergi üzrə debitor borclar 124672 manat 90 qəpik, sair debitor borclar üzrə qalıq 150286 manat 89 qəpik, cəmiyyətin pul vəsaiti qalığı 59980 manat 32 qəpik, səhimlər və iştirak payları üzrə maliyyə qoyuluşları 26753 manat 80 qəpik, digər aktivləri 6192851 manat 33 qəpik məbləğdə olmuşdur.

01 yanvar 2020-ci il tarixə mühasibat balansına görə Cəmiyyətin passivlərinin qalığı cəmi 8397456 manat 60 qəpik təşkil etmiş o, cümlədən Nizamnamə kapitalının qalığı 5581902 manat, qısamüddətli bank kreditləri üzrə borc qalığı 42000 manat, alınmış avanslar üzrə borc qalığı 10839 manat 20 qəpik, sair kreditor borclar 2 712045 manat 40 qəpik, digər öhdəliklər üzrə borc qalıq 50670 manat məbləğdə olmuşdur.

01 yanvar 2021-ci il tarixə mühasibat balansına görə Cəmiyyətin aktivlərinin qalığı cəmi 24813411 manat təşkil etmiş o, cümlədən əsas vəsaitlər qalıq dəyərlə 9008739 manat 19 qəpik, ehtiyatlar üzrə cəmi qalığı 1143583 manat 75 qəpik o, cümlədən sair ehtiyatlar üzrə qalığı 211457 manat 47 qəpik, hazır məhsul 932126 manat 28 qəpik, mallara, iş və xidmətlərə görə debitor borclar üzrə qalıqı cəmi 541889 manat 05 qəpik, o, cümlədən dövlət büdcəsi üzrə debitor borclar 143237 manat 05 qəpik, sair debitor borclar üzrə qalıq 398652 manat, cəmiyyətin pul vəsaiti qalığı 7744 manat 90 qəpik, səhmlər və iştirak payları üzrə maliyyə qoyuluşları qalığı 8026753 manat 80 qəpik, digər aktivlər 6084700 manat 31 qəpik məbləğdə olmuşdur.

01 yanvar 2021-ci il tarixə mühasibat balansına görə Cəmiyyətin passivlərinin qalığı cəmi 24813411 manat təşkil etmiş o, cümlədən Nizamnamə kapitalının həcmi 22300000 manat, kreditorlarla hesablaşmalar mallara, iş və xidmətlərə görə kreditor borclar üzrə qalıq 2462741 manat o, cümlədən, alınmış avanslar üzrə borc qalığı 10839 manat 20 qəpik, sair kreditor borclar 2409901 manat 80 qəpik, qısamüddətli bank kreditləri üzrə borc qalığı 42000 manat, qısa müddətli borclar üzrə qalıq 50670 manat məbləğdə olmuşdur.

**2020-ci il ərzində Cəmiyyətin illik mənfəət və zərər haqqında hesabatları barədə.**

Auditi əhatə edən dövr ərzində Cəmiyyətin xərcləri müvafiq saylı balans hesablarında aparılmış, 2020-ci il ərzində Cəmiyyətin xərcləri təqdim edilmiş sənədlərdə və hesabatlarda öz əksini tapmışdır. Cəmiyyətin 2020-ci il illik cəmi xərcləri 2202735 manat 16 qəpik məbləğdə olmuşdur. Belə ki, malların təqdim edilməsi, iş görülməsi və xidmət göstərilməsi üzrə xərclər cəmi 1 527054 manat 29 qəpik məbləğdə, o, cümlədən əmək haqqı 390702 manat 03 qəpik, sosial sığorta və təminat üzrə məcburi ayırmalar 78117 manat 54 qəpik, malların dəyəri 848108 manat 35 qəpik, enerji xərcləri 184113 manat 42 qəpik, qaz xərcləri 3694 manat 70 qəpik, yanacaq xərcləri 13295 manat 97 qəpik, su və kanalizasiya xərcləri 1676 manat 68 qəpik, bank xidməti üzrə xərclər 7345 manat 60 qəpik məbləğində olmuşdur. Əsas vəsaitlərə 491332 manat 57 qəpik məbləğdə köhnəlmə (aşınma) hesablanmış, digər xərclər 106325 manat 47 qəpik məbləğində olmuşdur. Gəlirlərdən çıxılan cəmi vergilər 78022 manat 83 qəpik o, cümlədən torpak vergisi 29346 manat 40 qəpik, əmlak vergisi 48676 manat 43 qəpik məbləğdə olmuşdur.

Beləliklə, Cəmiyyətin 2020-ci il illik fəaliyyətindən ümumi gəlirlər cəmi 2343865 manat 22 qəpik olmuş, o, cümlədən, malların təqdim edilməsi, iş görülməsi və xidmət göstərilməsi üzrə 2299472 manat 22 qəpik, daşınan və daşınmaz əmlakın icarəyə verilməsindən gəlir 44080 manat və xarici valyutaların manata nisbətən məzənnə fərqi 313 manat məbləğdə olmuş, illik cəmi xətclər 2202735 manat 16 qəpik məbləğdə təşkil etmişdir. Auditlə əhatə olunan dövr ərzində Cəmiyyət illik maliyyə-təsərrüfat fəaliyyətini 141130 manat 06 qəpik məbləğdə vergiyə cəlb olunan mənfəət olmuş, 28226 manat 01 qəpik məbləğində mənfəət vergisi hesablanıb aidiyatı üzrə ödənilmiş və 112904 manat 05 qəpik məbləğdə hesabat dövrünün xalis mənfəət olmuşdur.

**2019-cu il ərzində Cəmiyyətin illik mənfəət və zərər haqqında hesabatları barədə.**

Auditi əhatə edən dövr ərzində Cəmiyyətin xərcləri müvafiq saylı balans hesablarında aparılmış, 2019-cu il ərzində Cəmiyyətin xərcləri təqdim edilmiş sənədlərdə və hesabatlarda öz əksini tapmışdır. Cəmiyyətin 2019-cu il illik cəmi xərcləri 1547949 manat 32 qəpik məbləğdə olmuşdur. Belə ki, malların təqdim edilməsi, iş görülməsi və xidmət göstərilməsi üzrə xərclər cəmi 1360030 manat 89 qəpik məbləğdə, o, cümlədən əmək haqqı 444036 manat 91 qəpik, sosial sığorta və təminat üzrə məcburi ayırmalar 100092 manat 05 qəpik, malların dəyəri 579035 manat 21 qəpik, enerji xərcləri 193681 manat 03 qəpik, qaz xərcləri 3983 manat 37 qəpik, yanacaq xərcləri 27637 manat 15 qəpik, su və kanalizasiya xərcləri 1975 manat 05 qəpik, bank xidməti üzrə xərclər 9590 manat 12 qəpik məbləğində olmuşdur. Əsas vəsaitlərə 61109 manat 43 qəpik məbləğdə köhnəlmə (aşınma) hesablanmış, digər xərclər 89856 manat məbləğində olmuşdur. Gəlirlərdən çıxılan cəmi vergilər 36953 manat o,cümlədən torpak vergisi 29346 manat, əmlak vergisi 7607 manat, Cəmiyyətin bankda olan hesablaşma hesabından çıxarılmlş nağd pul vəsaitlərinə görə tutulmuş sadələşdirilmiş vergi 448 manat məbləğdə olmuşdur.

Beləliklə, Cəmiyyətin 2019-cu il illik fəaliyyətindən ümumi gəlirlər cəmi 1 718829 manat olmuş, illik cəmi xətclər 1547949 manat 32 qəpik məbləğdə təşkil etmişdir. Auditlə əhatə olunan dövr ərzində Cəmiyyət illik maliyyə-təsərrüfat fəaliyyətini 170879 manat 68 qəpik məbləğində xalis mənfəəti başa vurmuşdur.

Auditi əhatə edən dövr ərzində cəmiyyətdə işçilərin orta siyahı sayı müəyyən olmuşdur. Əmək haqqı fondu ştat cədvəli üzrə hesablanmış və ödənilmişdir. Əmək haqqından əhalinin Sosial Müdafiə Fonduna ayırmalar və təqaüd fonduna məcburi ayırmalar vaxtlı-vaxtında hesablanıb aidiyyatı üzrə köçürülmüşdür. Cəmiyyətin məcburi dövlət sosial sığorta haqlarının hesablanması, uçotu və xərclənməsinin düzgünlüyü aidiyyatı təşkilatların əməkdaşları tərəfindən nəzarət olunur. Azərbaycan Respublikası "Vergi Məcəlləsi"-nin tələblərinə müvafiq işçilərdən gəlir vergisi hesablanmış və ödənilmişdir.

Cəmiyyətində mühasibat uçotu Azərbaycan Respublikası "Mühasibat uçotu haqqında" qanununa əsasən aparılmışdır. İlkin mühasibat sənədləri və registrləri normativ sənədlərin tələblərinə uyğun tərtib edilmiş, mühasibat yazılışları ilkin sənədlərə əsaslanmış hesabat dövrünə balans hesabları üzrə dövriyyələr qruplaşdırılmışdır. Fikrimcə , cəmiyyətin mühasibat uçotunun vəziyyətini qənaətbəxş saymaq olar.

***"Bakı Fəhləsi Maşınqayırma zavodu" Məhdud Məsuliyyətli Cəmiyyətin 31 dekabr 2020-ci il tarixinə Maliyyə Hesabatları üzrə Şərhlər və Qeydləri***

## 3. Uçot siyasətinin təqdimatı.

Uçot siyasətinin bu maliyyə hesabatlarının tərtib edilməsində edilən əsas müddəaları aşağıdakı bəndlərdə göstərilmişdir. Əgər başqa açıqlamalarda istinad qeydləri edilməmişdirsə, göstərilən uçot siyasəti müddəaları təqdim edilən bütün hesabat dövrlərində ardıcıl tətbiq edilmişdir.

### *3.1. Maliyyə hesabatlarının tərtib olunmasının ümumi əsasları*

Cəmiyyətin mühasibat uçotu Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun qaydada aparılır. Bu maliyyə hesabatları Azərbaycan Respublikasının mühasibat uçotu haqqında qanunvericiliyi əsasında hazırlanmış və MHBS-na uyğunlaşdırılmışdır. Bu düzəlişlərə əsas əməliyyatların iqtisadi mahiyyətini əks etdirən yenidən təsnifləşdirmələr, o cümlədən bəzi aktiv və öhdəliklərin yenidən təsnifləşdirilməsi daxildir.

Bu maliyyə hesabatlarında, aktivlər və öhdəliklər faktiki xərclər üzrə qiymətləndirilmişdir.

Maliyyə hesabatlarının MHBS-na uyğun tərtib edilməsi nəzərdə tutur ki, rəhbərlik əsas qiymət göstəricilərini müəyyənləşdirir. Rəhbərlikdən həmçinin tələb edilir ki, Cəmiyyətin uçot siyasətinin həyata keçirilməsi sahəsində peşəkar mülahizələr açıqlansın.

### *3.2. Valyutaların yenidən hesablanması*
***Funksional valyuta və hesabat valyutası.***

Funksional valyuta maliyyə hesabatlarında maddələrin ölçülməsi üçün istifadə olunur.
Bu müəssisənin yerli valyutası Azərbaycan Respublikası manatıdır (AZN).

***Əməliyyatlar və qalıqlar.***

Xarici valyuta ilə aparılan əməliyyatlar əməliyyatların aparılma tarixinə valyuta məzənnəsinə uyğun olaraq funksional valyutada əks etdirilir. Məzənnə fərqləri funksioanal valyutalardan fərqli valyutalarda aparılan əməliyyatlar və sövdələşmələr üzrə yaranır və hər bir valyutanın müəyən sayda vahidlərinin müxtəlif məzənnə kursunda digər valyutaya çevrilməsi nəticəsində yaranan fərq kimi müəyyən edilir.

Xarici valyutada aparılan əməliyyatlar üzrə yaranan mənfəət və zərərlər, həmçinin xarici valyutada ifadə edilən monetar aktivlərin və öhdəliklərin hesabat dövrünün sonuna məzənnə kursu üzrə yenidən hesablanmasından yaranan mənfəət və zərərlər, mənfəət və zərərlər haqqında hesabatda əks etdirilir. Bu cür əməliyyatlardan yaranan məzənnə fərqləri müvəqqəti olaraq pul vəsaitlərinin və netto-investisiyaların hendcinqləşdirilməsi (aktivlər və öhdəliklərin dəyərinin dəyişməsindən yaranan itkilərdən sığortalanmaq üçün həyata keçirilən əməliyyatlar) kapital hesabına aid edilmişdirsə, məzənnə fərqləri mənfəət və zərərlər haqqında hesabatda əks etdirilmir. Monetar maddələr movcud valyuta vahidləri və valyuta vahidlərinin sabit və ya müəyyən olunan sayında əldə edilən və ya ödəlilən aktivlər və öhdəliklərdir. Monetar maddələrin əsas xüsusiyyəti sabit və ya müəyyən olunan sayda valyuta vahidlərinin əldə edilməsi hüququdur. Monetar maddələr nəğd, əldə edilən vəsaitləri, ssudaları, ödənilməli olan məbləğləri, uzunmüddətli borcları, təminatları, işçi müavinətləri öhdəliklərini və təxirə salınmış vergi aktivləri və öhdəliklərini daxil edir.
Qeyri-monetar maddələrə səhmlər, ehtiyatlar, əvvəlcədən ödənilmiş gələcək dövrün xərclər, əmlak, torpaq, tikili və avadanlıqlar və qeyri-maddi aktivlər daxil edilir.

***Xarici valyuta məzənnələri.***

Cəmiyyət maliyyə hesabatlarının tərtib olunması üçün aşağıdakı valyuta məzənnələrindəın istifadə etmişdir.
Hesabat tarixindən sonra, yəni 01.01.2021-ci il tarixdən sonra maliyyə hesabatlarına əhəmiyyətli təsir edəcək hadisə baş verməmişdir. Audit olinan dövrün müqayisəli rəsmi valyuta məzənnələri aşağıdakı kimi olmuşdur:

| Valyutalar | 31.12.2018 | 31.12.2018 | 31.12.2019 | 31.12.2020 |
|---|---|---|---|---|
| 1 ABŞ dolları | 1.7001 AZN | 1.7000AZN | 1.7000AZN | 1.7707AZN |
| 1 Avro | 2.0431AZN | 1.9468AZN | 1.9035AZN | 1.8644AZN |

### *3.3. Binalar və avadanlıqlar (Əsas vəsaitlər):*

Əsas vəsaitlər elə maddi aktivlərdir ki:
Mal və xidmətlərin istehsalı və təchizatında istismar edilir, gələcəkdə icarəyə verilmək və ya inzibati məqsədlər üçün istifadə edilir:
Bir dövrdən artıq dövr ərzində istifadə edilməsi gözlənilir.
***"Bakı Fəhləsi Maşınqayırma zavodu" Məhdud Məsuliyyətli Cəmiyyətin 31 dekabr 2020-ci il tarixinə Maliyyə Hesabatları üzrə Şərhlər və Qeydləri***

Ədalətli dəyər –yaxşı məlumatlandırılmış, razılığa gəlmiş və bir-birindən asılı olmayan tərəflər arasında ticari sövdələşmələrdə aktivin mübadilə edildiyi dəyərdir. Binalar üzrə ədalətli dəyər müstəqil kənar qiymətləndirici tərəfindən vaxtaşırı keçirilən (adətən üç ildən bir dəfədən az olmayaraq) qiymətləndirmə ilə müəyyənləşdirilir (amortizasiya ayırmaları çıxılmaqla) . Yenidənqiymətləndirmə tarixinə yığılmış istənilən amortizasiya məbləği aktivin balans dəyərindən silinir və xalis dəyər yenidənqiymətləndirmə dəyərinə hesablanır. Qalan bütün əsas vəsaitlər ilkin dəyərlə amortizasiya ayırmaları çıxmaqla əks etdirilir.

Sonrakı xərclər aktivin balans dəyərinə yalnız o vaxt əlavə edilir və ya ayrıca aktiv kimi qəbul edilir ki, bu aktivlərlə əlaqədar olan gələcək iqtisadi səmərələr Cəmiyyətə keçsin və düzgün qiymətləndirilə

bilsin. Qalan bütün cari təmir və istismar xərcləri o dövrün mənfəət və zərərlər haqqında hesabatında əks etdirilir ki, həmin dövrdə bu xərclər çəkilmişdir.

Torpaq və binaların yenidənqiymətləndirilməsi üzrə balans dəyərinin artması kapitalın tərkibində sair ehtiyatlar (rezervlər) hesabına aid edilir. Balans dəyərinin həmin aktiv üzrə əvvəlki yenidənqiymətləndirilmə artımı həddləri daxilində azalması birbaşa kapitalın tərkibində ədalətli dəyər üzrə ehtiyatlar (rezervlər) hesabına aid edilir: balans dəyərinin qalan bütün azalmaları mənfəət və zərərlər haqqında hesabatda əks etdirilir.

Hər il aktivin yenidənqiymətləndirilmiş balans dəyəri əsasında hesablanmış amortizasiya ayırmaları (amortizasiya ayırmaları mənfəət və zərərlər haqqında hesabatda əks etdirilir) və aktivin ilkin balans dəyəri əsasında hesablanmış amortizasiya ayırmaları arasındakı fərq, ədalətli dəyər üzrə ehtiyat (rezerv) hesabından "Bölüşdürülməmiş mənfəət" hesabına keçirilir.

### *3.4. Amortizasiya*

Torpaq üzrə amortizasiya ayırmaları hesablanmır.

Digər əsas vəsaitlər üzrə amortizasiya azalan qalıq dəyəri metoduna, yəni əsas vəsaitlərin faydalı istismar müddəti ərzində aşağıdakı illik amortizasiya dərəcələrini tətbiq etməklə, aktivlərin qalıq dəyərinə və ya yenidənqiymətləndirilmiş dəyərinə vurmaqla həyata keçirilir.

Faydalı istismar müddəti və ya illik amortizasiya dərəcələri aşağıdakı qaydada müəyyən edilir: Əhəmiyyətli uçot siyasətlərinin qısa məzmunu (davamı) Köhnəlmə. Köhnəlmə bərabər aşıma prinsipinə əsasən binalar və avadanlıqlara onları təxmin edilən faydalı xidmət müddəti ərzində aşağıdakı kimi nəzərdə tutulmuşdur

| | İl | % |
|---|---|---|
| - binalar | 40 | 7 |
| - maşın və avadanlıqlar- | 5 | 25 |
| - mebel və təsərrüfat inventarlar | 5 | 20 |
| - nəqliyyat vasitələri | 5 | 25 |
| - digər avadanlıq | 5 | 20 |

Aktivlərin ləğv edilmə dəyərinə və onların faydalı istismar müddətinə vaxtaşırı yenidən baxılır və zərurət olduqda, hər bir hesabat dövrünə təshih edilir.

Əsas vasitələrin xaric olmasından mənfəət və zərərlər bu əsas vasitələrin satışı ilə onların balans dəyərinin müqaisə edilməsi yolu ilə müəyyən edilir. Xaric olmalardan mənfəət və zərərlər, mənfəət və zərərlər haqqında hesabatda əks etdirilir.

### *3.5. Qeyri-maddi aktivlər*

Qeyri-maddi aktivlər onların alınması və tətbiq edilməsi üçün çəkilmiş xərclərin əsasında kapitallaşdırılır. Müəyyən faydalı xidmət müddətinə malik olmaqla faydalı xidmət müddəti ərzində bərabər çıxılmalar metoduna əsasən amortizasiya olunur.

### *3.6. Aktivlərin qiymətdən düşməsi*

Faydalı istismar müddəti müəyyən edilə bilinməyən aktivlər amortizasiya olunmur və hər il qiymətdən düşmə məqsədləri üeçün testləşdirmə aparılır. Amortizasiya olunan aktivlər, əgər hər hansı bir hadisə və ya şəraitin dəyişməsi balans dəyərinin bu aktivlərin əvəzinin ödənilmə dəyəri olmamasını göstərirsə, hər dəfə qiymətdən düşmə məqsədləri üçün qiymətləndirilir. Qiymətdən düşmə zərəri aktivin balans dəyərinin onun əvəzinin ödənilmə dəyərindən artıq olan məbləğində tanınır.

Əvəzinin ödənilməsi dəyəri aşağıdakı iki meyarlardan daha böyük olan məbləğlərdən biridir:

Aktivin satışı üzrə xərclər çıxılmaqla ədalətli dəyəri:

Istifadə edilmə dəyəri

Aktivlərin qiymətdən düşməsi məqsədləri üçün aktivlər pul axınlarını eyniləşdirən qruplaşdırma qaydasında
ən kiçik qruplara bölünürlər.

### *İnvestisiyalar*

Cəmiyyət özünün investisiyalarını aşağıdakı şəkildə təsnifləşdirir:

Ədalətli dəyərinin dəyişməsi mənfəət və zərərlər hesabında əks etdirilən maliyyə aktivləri:

Borc vəsaitləri və debitor borcları:
İnvestisiyalar:
Satış üçün nəzərdə tutulmuş maliyyə aktivləri .
Təsnifləşdirmə investisiyaların hansı məqsədlə alınmasından asılıdır. Rəhbərlik investisiyaların təsnifləşdirilməsini onların ilkin tanınması zamanı müəyyən edir və hər bir hesabat tarixinə onları yenidən nəzərdən keçirir.
a) Ədalətli dəyərinin dəyişməsi mənfəət və zərərlər hesabında əks etdirilən maliyyə aktivləri.
Bu kateqoriya iki alt kateqoriyaya bölünür: ticarət üçün nəzərdə tutulmuş maliyyə akyivləri və ilkin tanınmış ədalətli dəyərinin dəyişməsi mənfəət və zərərlər hesabında əks etdirilən maliyyə aktivləri. Maliyyə aktivləri bu kateqoriyaya o zaman aid edilir ki, onlar yaxın gələcəkdə satış üçün nəzərdə tutulmuşdur və onlar rəhbərlik tərəfindən belə ifadə edilmişdir.
Törəmə maliyyə alətləri də həmçinin satış üçün nəzərdə tutulmuş hesab edilirlər ki, onlar hedcinqləşdirmə alətləri deyildirlər. Əgər bu aktivlər satış üçün nəzərdə tutulmuşlarsa, və ya onların satılması balans hesabatı tarixindən bir ildən artıq olmayan müddətdə nəzərdə tutulmuşdursa. Bu kateqoriyanın aktivləri qısamüddətli aktivlər kimi təsnifləşdirilir.

***b)Borc vəsaitləri və debitor borcları.***

Borc vəsaitləri və debitor borcları təsbit edilmiş və ya müəyyən edilə bilən ödəmə müddəti olan və aktiv bazarda qiyməti təyin edilməyən (kotirovka olunmayan) qeyri-törəmə maliyyə aktivləridir. Onlar o vaxt yaranırlar ki, Cəmiyyət debitor borclarının satılması niyyəti olmadan pul vəsaitlərini, malları və xidmətləri birbaşa debitora təqdim edir. Belə borc vəsaitləri və debitor borcları dövriyyə aktivləri kçimi təsnifləşdirilir və qısamüddətli aktivlərə aid edilirlər ( əgər ödəmə müddəti mühasibat balansının tərtib edilmə tarixindən bir ilədək müddətdən artıq deyildirsə). Borc vəsaitləri və debitor borcları mühasibat balansında "Debitor borcları" maddəsinin tərkibində əks etdirilmişdir.

***c) Ödəmə müddətinə qədər saxlanılmış (dayandırılmış) investisiyalar.***

Ödəmə müddətinə qədər saxlanılmış (dayandırılmış) investisiyalar təsbit edilmiş ödəmə müddəti olan elə qeyri-törəmə maliyyə aktivlərdir ki, onlara mkünasibətdə ödəniş müddətinin çatmasına qədər Cəmiyyətin onları saxlamağa qəti niyyəti və imkanı vardır. Hesabat dövründə Cəmiyyətin bu kateqoriya üzrə heç bir investisiyası olmamışdır.

***d) Satış üçün nəzərdə tutulmuş maliyyə aktivləri***

Satış üçün nəzərdə tutulmuş maliyyə aktivləri bu kateqoriyada nəzərdə tutulmuş və ya digər kateqoriyalarda təsnifləşdirilməmiş qeyri-törəmə maliyyə alətləridir. Əgər rəhbərliyin bu aktivləri mühasibat balansının tərtib edilmə tarixindən bir ilədək müddətə satmaq niyyəti yoxdursa, onlar qeyri-dövriyyə aktivlərinə aid edilirlər və uzunmüddətli aktivlərin tərkibində əks etdirilirlər.

***3.8. Ehtiyatlar*** Ehtiyatlar faktiki maya dəyərilə əks etdirilir. Maya dəyərinə material xərcləri, istehsal işçilərinin əmək haqqı xərcləri, sair birbaşa xərclər, həmçinin inzibati xərclərin müvafiq hissəsi daxil edilir. Ehtiyatların dəyərinə, bu xammal və material ehtiyatlarının əldə edilməsi ilə bağlı olan və müvafiq pul axınının hedcinqləşdirilməsi alətləri üzrə mənfəət və zərərlər hesabından keçirilmiş zərərlər daxil edilir.

***3.9. Alıcılar və sifarişçilərin debitor borcları*** Alıcılar və sifarişçilərlə hesablaşmalar ilkin olaraq ədalətli dəyər üzrə əks etdirilir. Sonradan isə qiymətdən düşmə ehtiyatlarının (rezervlərinin) yaradılması metodu ilə amortizasiya olunmuş dəyər ilə uçota alınır. Alıcılar və sifarişçilərin debitor borcları üzrə qiymətdən düşmə ehtiyatları (rezervi) o halda yaradılır ki, elə obyektiv sübutlar mövcuddur ki, Cəmiyyət tərəfindən ilkin maliyyələşmə nəticəsində yaranmış bütün debitor borclarının yığılması mümkün deyildir və ya bütün debitor borclarının ödənilməsi mümkünsüzdür. Ehtiyatların (rezervin) məbləği aktivin balans dəyəri ilə pul vəsaitləri axınının effektiv faiz dərəcəsi nəzərə alınan fərz edilən diskontlaşdırılmış dəyəri arasındakı fərqdir. Ehtiyatların (rezervlərin) yaradılması və ya dəyişməsi mənfəət və zərərlər haqqında hesabatda əks etdirilir.

***3.10. Pul vəsaitləri və onların ekvivalentləri***

Pul vəsaitləri və onların ekvivalentləri asanlıqla müəyyən nəğd pul məbləğinə çevrilə bilən və dəyəri cüzi dəyişikliklərə məruz qalan maddələrdir.
Pul vəsaitləri və onların ekvivalentləri maddəsində kassada olan nəğd pul vəsaitləri, yolda olan pul köçürmələri, bank hesablaşma hesabları, digər tələbli bank hesabları, pul vəsaitlərinin ekvivalentləri, bank overdraftları və ödənilmə müddəti üç aydan artıq olmayan digər yüksəklikvidli investisiyalar əks etdirilir. Mühasibat balansında bank overdraftları qısamüddətli öhdəliklərin tərkibində qısamüddətli faiz xərcləri yaradan öhdəliklər maddəsi üzsrə əks etdirilir.

***3.11.Səhmdar kapital***

Səhmlər ( paylar) kapital kimi təsnifləşdirilir. Yeni səhmlərin (payların) buraxılması ilə əlaqədar olan xərclər kapitalın tərkibində əks etdirilir. Bu cəmiyyətin səhmləri yoxdur.

***3.12. Kreditlər və borclar***

Kreditlər və borclar ilkin olarq sövdələşmənin aparılmasına çəkilən xərclər çıxılmaqla, ədalətli dəyər üzrə tanınır.

Kreditlər və borclar, Cəmiyyət tərəfindən bu öhdəliklərin ödənilmə müddətinin mühasibat balansının tərtib edilmə müddətindən ən azı bir ildən artıq olan müddətə ödəniləcəyi barədə şərtsiz hüququ olması halları istisna olmaqla, qısamüddətli öhdəliklər kimi təsnifləşdirilir.

***3.13. Mənfəət vergisi***

Mənfəət vergisi hazırki maliyyə hesabatlarında balans tarixinə Aazərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyinə uyğun olaraq hesablanmışdır. Mənfəət vergisi xərci cari və təxirəsalınmış mənfəət vergisindən ibarət olub, mənfəət və zərər hesabatında qeydə alınır. Lakin, həmin və ya başqa dövrdə bilavasitə kapital hesablarında qeydə alınan əməliyyatlara aid olan vergilər bilavasitə kapital hesablarında qeydə alınır.

Cari mənfəət vergisi, cari və ya əvvəlki dövrlər üzrə vergiyə cəlb edilən və ya zərər ilə əlaqədar vergi orqanlarına ödəniləcək və ya onlardan geri alınacaq (əvəzləşdiriləcək) məbləği təşkil edir. Vergiyə cəlb edilən mənfəət və ya zərər, maliyyə hesabatlarının müvafiq vergi bəyənnamələrinin təqdim edilməsindən əvvəl təsdiqləndiyi halda təxmini göstəricilərə əsasən hesablanır. Mənfəət vergisindən başqa digər vergilər inzibati və digər əməliyyat xərcləri kimi qeydə alınır.

Təxirə salınmış mənfəət vergsi üzrə ehtiyat (rezerv) öhdəliklər metodu istifadə edilməklə tam həcmdə yaradılır. Təxirə salınmış mənfəət vergisi , aktivlərin və öhdəliklərin vergitutma bazası ilə onların maliyyə hesabatlarında əks etdirilmiş balans dəyəri arasında meydana çıxan bütün zaman fərqləri üzrə müəyyən edilir. Lakin, təxirə salınmış mənfəət vergsi, aktivlərin və ya öhdəliklərin ilkin tanınması zamanı meydana çıxırsa, o halda təxirə salınmış mənfəət vergisi uçotda əks etdirilmir (əgər. Sövdələşmənin həyata keçirildiyi anda nə mühasibat mənfəətinə, nə də vertgiyə cəlb edilən mənfəətə təsir etməyən biznesin birləşdirilməsi ilə əlaqədar deyildirsə) . Təxirə salınmış mənfəət vergisi mühasibat balansının tərtib edilmə tarixinə qüvvədə olan Azərbaycan Respublikasının Vergi Məcəlləsində müəyyən edilmiş vergi dərəcələrinə müvafiq olarq hesablanır.

Təxirə salınmış vergsi aktivləri o zaman tanınır ki, gələcəkdə zaman fərqləri məbləğində azaldıla biləcək vergiyə cəlb edilməsi mənfəət əldə edilməsi ehtimalı vardır.

***3.14. Qarşıdakı xərclər və ödənişlər üzrə ehtiyatalar (rezervlər)***

Ətraf mühitin bərpa olunmasına, restrukturizasiyaya və məhkəmə çəkişmələrinə ehtiyatlar (rezervlər) o zaman yaradılır ki: Cəmiyyət keçmiş dövrlərdə baş vermiş hadisələr nəticəsində hər hansı hüquqi öhdəliklər daşıyır və ya könüllü surətdə öz üzərinə ənənəvi öhdəliklər qəbul etmişdir:

Ehtimallar vardır ki, bu öhdəliklərin sahmana salınması üçün pul vəsaitlərinin axını labüddür:

Bu öhdəliklərin məbləği etibarlı surətdə hesablana bilər:

Restrukturizasiya xərcləri üzrə ehtiyatlara icarə müqavilələrinin vaxtından əvvəl ləğv edilməsinə görə cərimə sanksiyaları və işçilərə ödənilən işdən çıxma müavinətləri daxildir. Gələcək dövrlərin əməliyyat zərərləri üzrə ehtiyatlar yaradılmır.

***3.15. Gəlirin tanınması***

Gəlir satılmış mal, iş və xidmətlərin ədalətli dəyəri ilə (əlavə dəyər vergisi çıxılmaqla) tanınır. Satışdan gəlir aşağıdakı qaydada tanınır:

(a) Satış, iş və xidmətlərin göstərilməsindən gəlirlər

Satışdan (iş və xidmətlərin göstərilməsindən) gəlirlər o hesabat dövrünə aid edilir ki, bu satış (iş və xidmətlər) həyata keçirilmişdir və satış (iş və xidmət) üzrə konkret sövdələşmənin tələbləri başa çatdırılmışdır.

Konkret sövdələşmənin tələblərinin başa çatdırılmaası dərəcəsi faktiki göstərilmiş xidmətlərin həcminin sövdələşmə üzrə göstəriləcək xidmətlərin ümumi həcmindəki payı kimi qiymətləndirilir.

***(b) Faiz gəlirləri***

Faiz gəlirləri faktiki əldə edildiyi dövrdə gəlir kimi tanınır.

***(c) Dividend gəlirləri***

Dividend gəlirləri o zaman tanınır ki, səhmdarların mənfəət əldə etmək hüququ müəyyən olunmuşdur.

***3.16. İcarə***

Mülkiyyət hüququndan irəli gələn risklərin və səmərələrin əhəmiyyətli hissəsinin icarəyə verəndə qalması hallarındakı icarə, əməliyyat icarəsi kimi təsnifləşdirilir. Əməliyyat icarəsi müqaviləsi üzrə ödənişlər bütün icarə müddəti üzrə bərabər hissələrə bölünməklə, mənfəət və zərərlər haqqında hesabatda əks etdirilir.

### *3.17. Dividendlərin verilməsi*

Cəmiyyətin səhmdarlarına divident hesablanmamışdır.

***"Bakı Fəhləsi Maşınqayırma zavodu" Məhdud Məsuliyyətli Cəmiyyətin 31 dekabr 2020-ci il tarixinə Maliyyə Hesabatları üzrə Şərhlər və Qeydləri***

## 4. Maliyyə risklərinin idarə edilməsi:

### *4.1. Maliyyə risklərinin faktorları*

Cəmiyyətin fəaliyyəti bir sıra maliyyə risklərinə meyillidir: bazar riski (valyuta riskləri, faiz dərəcələrinin dəyişməsinin ədalətli dəyərə təsir riski və qiymət riski daxil olmaqla): kredit riski, likvidlik riski və faiz dərəcələrinin dəyişməsinin pul vəsaitləri axınına təsiri riski.

Cəmiyyətin risklərin idarə olunması üzrə proqramı, maliyyə risklərinin qabaqcadan müəyyən edilə bilinməməsi amilinə cəmləşdirilmişdir (fokusuna yığılmışdır) və Cəmiyyətin fəaliyyətinin maliyyə nəticələrinə potensial əlverişsiz təsirinin minimallaşdırılmaasına yönəldilmişdir. Cəmiyyət müəyyən risklərin hedcinqləşdirilməsi üçün törəmə maliyyə alətlərindən istifadə edir.

***"Bakı Fəhləsi Maşınqayırma zavodu" Məhdud Məsuliyyətli Cəmiyyətin 31 dekabr 2020-ci il tarixinə Maliyyə Hesabatları üzrə Şərhlər və Qeydləri***

## 5. Uçot siaysətinin tətbiqi zamanı əhəmiyyətli mühasibat təxminləri və fərziyyələri.

Cəmiyyət növbəti maliyyə ili ərzində hesabatlarda əks etdirilən aktiv və öhdəliklərin məbləğinə təsir göstərən təxminlər və fərziyyələr irəli sürür. Həmin təxminlər və fərziyyələr müntəzəm olaraq rəhbərliyin təcrübəsinə və digər amillərə, həmçinin rəhbərliyin fikrincə mövcud şəraitə uyğun olaraq əsaslandırılmış gələcək hadisələr üzrə təxminlərə əsasən təhlil edir.

Uçot siyasətinin tətbiqi zamanı rəhbərlik həmçinin peşəkar mülahizələr və fərziyyələr irəli sürür. Maliyyə hesabatlarında əks etdirilən məbləğlərə daha çox təsir göstərən peşəkar mülahizələr və növbəti maliyyə ili ərzində aktivə öhdəliklərin balans dəyərinə əhəmiyyətli güzəştlərin edilməsinə səbəb olan təxminlərə aşağıdakılar daxildir:

***5.1. Müştəri debitor borclarının dəyərsizləşməsi üzrə zərərlər*** Gələcək pul vəsaitləri hərəkətinin məbləğini və müddətini təxmin edərkən istifadə edilən metodologiya və mülahizələr, təxmini və həqiqi zərərlər arasındakı hər hansı fərqi azaltmaq məqsədilə müntəzəm olaraq nəzərdən keçirilir.

***5.2.Binaların yenidən qiymətləndirilməsi*** Hər bir balans tarixində Cəmiyyətin binalarının ədalətli dəyərinin balans hesabatında əks etdirilməsi məqsədilə, rəhbərlik binaların yenidənqiymətləndirilməsi üzrə əsas əldə etmək məqsədilə müstəqil qiymətləndirmə hesabatının tələb olunduğunu müəyyən etmək üçün peşəkar mülahizələr irəli sürür.

***5.3. Vergi qanunvericiliyi*** Azərbaycan Respublikasının vergi, sosial sığorta, Valyuta və gömrük qanunvericiliyi müxtəlif şərhlərə məruz qalır.

## 6. Yeni və yenidən işlənmiş standartların və onlara şərhlərin tətbiqi.

Yeni və yenidən işlənmiş standartların və onlara şərhlərin tətbiqinin 31 dekabr 2020-ci il və 31 dekabr 2019-cu il tarixlərinə Cəmiyyətin maliyyə vəziyyətinə və həmin tarixdə tamamlanan illər üçün əməliyyat nəticələrinə təsiri əhəmiyyətli dərəcədə olmamışdır.

| | 31.12.2020 | 31.12.2019 |
|---|---|---|
| **7.Torpaq, tikili və avadanlıqların qalığı** | 9008739.19 | 736583,76 |
| **8.Qeyri-maddi aktivlər qalıq dəyəri** | 0 | 0 |
| **9.Uzunmüddətli maliyyə aktivləri** | 0 | 0 |

| **10. Ehtiyatlar** | 2020 | 2019 |
|---|---|---|
| Hazır məhsul | 932126.28 | 844624.26 |
| Sair ehtiyatlar | 211457.47 | 261703.34 |
| **Cəmi Ehtiyatlar** | **1143583.75** | **1106327-60** |

| **11. Qısamüddətli debitor borcları** | 2020 | 2019 |
|---|---|---|
| Dövlət büdcəsinə (vergilər üzrə) | 143237-05 | 124672-90 |
| Digər qısamüddətli debitor borcları | 398652-00 | 150286-89 |
| **Cəmi** | **541889-05** | **274959-79** |

| **12. Sair qısamüddətli aktivlər** | 2020 | 2019 |
|---|---|---|
| Səhm və istirakçı pay üzrə maliyyə qoyuluşu | 8026753-80 | 26753-80 |

| | | |
|---|---|---|
| Gələcək dövrün xərcləri | 0 | 0 |
| Verilmiş avanslar | 0 | 0 |
| Təhtəlhesab məbləğlər | 0 | 0 |
| Digər qısamüddətli aktivlər | 6084700-31 | 6192851-33 |
| **Cəmi:** | **14111454-11** | **6219605-13** |

| **13. Pul vəsaitləri və onların ekvivalentləri** | 2020AZN | 2019AZN |
|---|---|---|
| Kassa | 1-41 | 0-37 |
| Hesablaşma hesabı | 2238-81 | 121-44 |
| Valyuta hesabı | 5504-68 | 59858-51 |
| **Cəmi** | **7744-90** | **59980-32** |

**14. Qısamüddətli kreditor borcları**

| | | |
|---|---|---|
| Malsatan və podratçılara qısakreditor borcları | 0-00 | 0-00 |
| Bank krediti borcları | 42000-00 | 42000-00 |
| Alınmış avanslar borcları | 10839-20 | 10839-20 |
| Digər qısamüd kreditor borcları * | 0-00 | 0-00 |
| **Cəmi** | **52839-20** | **52839-20** |

**15. Sair qısamüddətli kreditor borcları**

| | | |
|---|---|---|
| Sair kreditor borcları | 2409901-80 | 2712045-40 |
| Digər öhdəliklər | 50670-00 | 50670-00 |
| Cəmi: | **2460571-80** | **2762715-40** |

**16.Vergi və digər məcburi ödəniş öhdəlikləri**

| | | |
|---|---|---|
| **Vergilər üzrə öhdəliklər** | 0-00 | 0-00 |
| **Sosial sığorta üzrə öhdəliklər** | 0-00 | 0-00 |

| | | |
|---|---|---|
| **17. Ödənilmiş nominal (nizamnamə) kapitalı** | 22300000 | 5581902 |
| Cəmi: | **24813411-00** | **8397456-60** |

| | | |
|---|---|---|
| **18. Əsas əməliyyat gəliri** | 2020 | 2019 |
| | 2343865-22 | 1718829-20 |
| **19. Cəmi xərclər (Satışın maya dəyəridə)** | -2202735-16 | -1547949-32 |
| O, cümlədən xərclərin açıqlanması : | | |
| İstifadə edilmiş material ehtiytları | -848108-35 | -579035-21 |
| İşçi heyyəti üzrə əmək haqqı xərcləri | -390702-03 | - 444036-91 |
| DSMF | -78117.54 | -100092-05 |
| Amortizasiya xərclər | -491332.57 | -61109-43 |
| Cəmi- - Sair xərcləri | -316451-84 | -326722-72 |
| Gəlirlərdən çıxılan cəmi vergilər | -78022.83 | -36953-00 |
| Hesabat dövrünə xalis mənfəət (zərər) cəmi | 141130.06 | 170879-88 |

**20. Mənfəət vergisi**

| | | |
|---|---|---|
| Mənfəət vergisi cəmi | 28226.01 | 34176-0 |
| Hesabat dövrü bölüşdürülməmiş mənfəət | 112904.05 | 336703.88 |

MHBS və Azərbaycan Respublikasının vergi qanunvericiliyi arasındakı fərqlər nəticəsində maliyyə hesabatlarının hazırlanması və mənfəət vergisinin hesablanması çərçivəsində aktiv və passivlərin balans dəyəri arasında müvəqqəti zaman fərqləri əmələ gəlir. Bu müvəqqəti zaman fərqləri üzrə dövriyyələrin vergi təsiri cari ilin sonuna mövcud olmuş mənfəət vergisi dərəcəsində 20% (2020-ci ildə də-20%) qeydə alınmışdır.

**21. Səhm (pay) üzrə mənfəət –Cəmiyyətin səhmdarlarına divident hesablanmaışdır.**

**22. Əlaqəli tərəflərlə əməliyyatlar.**
Hazırkı maliyyə hesabatlarının hazırlanması məqsədləri üçün tərəflər o zaman əlaqəli hesab olunur ki, tərəflərdən biri digərinə nəzarət edə bilsin, onunla eyni qrupun nəzarəti altında olsun və ya maliyyə-təsərrüfat fəaliyyəti ilə bağlı məsələlər üzrə qərar qəbul edərkən ona təsir göstərə bilsin. Əlaqəli tərəflər arasındakı münasibətləri nəzərə alarkən həmin münasibətlərin hüquqi formaasına deyil, iqtisadi məzmununa diqqət yetirilir.

**23. Risklərin idarə edilməsi.**
Cəmiyyət daxilində risklərin idarə edilməsi funksiyası maliyyə riskləri (kredit riski, bazar riski, coğrafi risklər, valyuta riski, likvidilik riski və faiz dərəcəsi riskləri), əməliyyat və hüquqi risklər ilə əlaqədar həyata keçirilir. Maliyyə risklərinin idarə edilməsi funksiaysının əsas məqsədi risk limitlərinin müəyyən edilməsi və bu limitlərə riayət edilməsidir. Əməliyyat və hüquqi risklərin idarə edilməsində məqsəd, bu risklərin azaldılması üçün nəzərdə tutulan daxili qayda və prosedurlara müvafiq qaydada riayət edilməsini təmin etməkdən ibarətdir.

***Kredit riski.*** Cəmiyyətin kredit riski konsentrasiyası üçün potensial müzakirə mövzusu olan maliyyə aktivləri pul və debitor borclarından ibarətdir.

***Bazar riski.*** Cəmiyyət bazardakı ümumi və spesifik dəyişikliklərə məruz qalan faiz, valyuta və pay alətləri üzrə açıq mövqelər ilə əlaqədar bazar risklərinə məruz qalır. Bazarda daha əhəmiyyətli dəyişikliklərin baş verdiyi halda müəyyən edilmiş limitdən artıq zərərlərin yaranmasının qarşısı alınır. Qəbul edilmiş normalar ilə uzunmüddətli borcların bazar dəyəri onların daşınan dəyərləri ilə dəyişə bilər.

***Faiz dərəcəsi riski.*** Cəmiyyətin bir çox borcları təyin olunmuş marağa ifadə edir. Bu borclarla əlaqəli maraq xərcləri sığortalanmamışdır. Rəhbərlik inanır ki, maraq normalarının daimi olmamasından irəli gələn bazar qiymətlərinə dəyişikliklər əhəmiyyətli xarakter daşımır.

**24. Hesabat tarixindən sonra baş vermiş hadisələr.**
Hesabat tarixindən sonra maliyyə hesabatlarına əhəmiyyətli təsir edəcək hadisələr baş verməmişdir. "Bakı Fəhləsi Maşınqayırma zavodu" Məhdud Məsuliyyətli Cəmiyyətin 31 dekabr 2020-ci il tarixinə bitən il üzrə maliyyə vəziyyətini və həmin tarixdə bitən il üzrə maliyyə nəticələrini və pul vəsaitlərinin hərəkətini bütün əhəmiyyətli hallarda düzgün və Beynəlxalq Maliyyə Hesabatı Standartlarına uyğun əks etdirir. Azərbaycan Respublikası Auditorlar Palatasının 26 dekabr 2016-cı i il tarixli SA/065 saylı İcazə qeydiyyatı ilə fəaliyyət göstərən sərbəst auditor Vəli Oruc oğlu Bayramov əsas mühasibat uçotu prinsiplərinin icmalından və digər izahlı qeydlərdən ibarət maliyyə hesabatlarının auditini aparmış və 15 mart 2021-ci il tarixində izahlı qeydlər tərtib etmışdir.

**Sərbəst auditor** [stamp: Azərbaycan Respublikası Auditorlar Palatası — Bayramov Vəli Oruc oğlu — Sərbəst Auditor — Independent Auditor — Chamber of Auditors of Azerbaijan Republic] **Vəli Oruc oğlu Bayramov**